

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 215 (23.627)

*10 dekabr 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan birgə şam ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev qarşılıqlı əməkdaşlıq nəticəsində qazanılan uğurlardan danışıb. Qeyd olunub ki, Azərbaycan iki ölkə arasında gözəl siyasi münasibətlərindən faydalanaraq iqtisadi əməkdaşlıq və daha çox İtaliya şirkətinin Azərbaycanda fəaliyyətə cəlb edilməsi məsələlərini nəzərdən keçirmək niyyətindədir. Buraya ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, Azərbaycanın dağıdılmış şəhərlərinin bərpasına dair böyük planlar da daxildir. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə yenidənqurma işləri ilə bağlı ilk müqavilələrin türk şirkətləri ilə bağlandığını, növbəti müqavilələrin Azərbaycanın yaxın dostu olan İtaliyaya məxsus şirkətləri ilə imzalanacağına əminliyini bildirib.

Manlio Di Stefano səfərin təşkili üçün minnətdarlıq edib, üçtərəfli Bəyanatdakı müddəaların icrasına yardım etməkdə öz imkanlarını təmin etməyə hazır olduqlarını diqqətə çatdırıb.

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 9 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da vardır.

**Dadaşov Haxverdi Xudaverdi oğlu – polkovnik**

"Zəfər" ordeni ilə,

**Aslanov Rəşad Əmirbəy oğlu – polkovnik-leytenant**

"Qarabağ" ordeni ilə təltif edilmişdir.

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 9 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad edilməsi zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir. Onlar arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da vardır.

**Əliyev Anar Vaqif oğluna – polkovnik-leytenant (ölümündən sonra)**

**Şirinov Elnur Ramiz oğluna – mayor**

**Babayev Nihad Akif oğluna – kapitan (ölümündən sonra)**

**Şıxnəbiyev Renat Güləmməd oğluna – kapitan**

"Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir.

---

# Muxtar respublika yeni tranzit qovşağa çevriləcək

*Hər bir regional və ya beynəlxalq hadisənin mahiyyəti özünün başvermə səbəbləri, ortaya qoyduğu nəticələri ilə xarakterizə olunur. Artıq bir müddətdir, bütün dünyanın diqqət mərkəzinə çevrilən II Qarabağ müharibəsi və bu müharibənin nəticəsi olaraq Azərbaycan, Ermənistan, Rusiya arasında imzalanmış məlum Bəyannamə də bütün dünya kütləvi informasiya vasitələrinin əsas müzakirə mövzusudur.*



Noyabrın 10-da imzalanmış bu Bəyannamə Azərbaycanın şanlı Qələbəsini təmin etməklə bərabər, Cənubi Qafqaz regionunda sabitliyin, yeni inkişaf dövrünün başlanğıcı kimi də qəbul olunur. 9 bənddən ibarət olan bu tarixi sənəd haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev elə həmin gün xalqa müraciət edərək məlumat vermişdi. Dekabrın 1-də Laçın rayonunun Azərbaycana təhvil verilməsi, bununla da indiyədək işğal altında saxlanılan bütün rayonlarımızın de-fakto yenidən Azərbaycanın rəsmi idarəçiliyinə geri qaytarılmasının başa çatdırılması münasibətilə xalqa müraciət edən ölkə başçısı çıxışında Bəyannamənin bəndlərində göstərilən şərtlərə bir daha toxundu, həm də izahedici formada. Naxçıvanla bağlı nəzərdə tutulan bənd haqqında Prezident cənab İlham Əliyev bunları dedi: ***"Doqquzuncu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".***

Dövlət başçısı bu bəndin razılaşma mətninə salınmasını, xüsusilə vurğulayaraq bildirdi ki: ***"Bu 9-cu bənd sırf mənim təkidim nəticəsində Bəyanata salınmışdır. Çünki müzakirə olunan, uzun illər, müzakirə olunan sülh planında belə açıq-aydın müddəa yox idi. Yəni nəzərə alınırdı ki, bütün kommunikasiyalar açılacaqdır və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında söz getmirdi. Hesab olunurdu ki, bu ümumi ifadə bunu ehtiva edir. Burada isə konkret göstərildi ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Yəni bu dəhliz tam təhlükəsiz olacaq. Eyni zamanda ikinci məsələ – tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası – bu məsələni tam və gələcəyə hesablanmış çərçivədə həll etmək üçün əlavə də bənd salındı. Yəni bu, nə deməkdir? O deməkdir ki, iki dəhliz olmalıdır. Əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu, bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda yeni bir nəqliyyat damarını açırıq".***

Sözügedən mövzu ilə bağlı qəzetimizin ötən saylarında bildirmişdik ki, Naxçıvanla nəqliyyat əlaqələrinin bərpa olunması məqsədilə 9-cu bəndin təkidlə Bəyannaməyə salınması, sözün həqiqi mənasında, böyük diplomatik uğurdur. Çünki ölkə başçısının da qeyd etdiyi kimi bu məsələ aparılan danışıqlarda müzakirə predmeti deyildi. Münaqişə zonası ilə birbaşa bağlılığı olmayan, lakin bu münaqişənin nəticəsi kimi ortaya çıxan Naxçıvanın blokadasını ermənilər hər zaman Azərbaycana bu və ya digər məsələlərin həllində təsir vasitəsi kimi nəzərdə saxlayırdılar. Nəqliyyat-kommunikasiya xətlərinin Ermənistan ərazisindən (vaxtilə Azərbaycan ərazisi olmuş Zəngəzurdan) keçməsi isə Azərbaycanın bu istiqamətdə hərbi nəzarətinə əngəl yaradırdı. Buna görə də muxtar respublikanın blokada probleminin həll olunması, əsasən, siyasi müstəvidə, həm də Azərbaycanın öz şərtlərini diktəyə çevirəcəyi vaxtda mümkün ola bilərdi. Çünki diplomatiyada şərtlər hər zaman qarşılıqlı güzəştə əsaslanır. Məhz cənab İlham Əliyev də özünün yaratdığı bu şəraitdən istifadə edərək Naxçıvanın blokada məsələsini uğurlu diplomatik gedişlə həll etdi. Ölkə başçısı hər kəsə bəyan etdi ki, bu məsələnin həll olunması ilə bütün ölkələr bundan faydalana biləcəklər. Rusiya, Azərbaycan, Türkiyə, İran və əgər istəsə, Ermənistan bu dəhlizə qoşula bilər. Beləliklə, bölgədə beştərəfli yeni əməkdaşlıq platforması yaradıla bilər. Cənab Prezident yeni layihənin uğurla reallaşacağına əminliyini vurğulayaraq bildirdi ki, bundan beş ölkə fayda götürə bilər. Ölkəmizin başçısı çıxışında həmin layihəni regional təhlükəsizlik və əməkdaşlıq üçün ən yaxşı layihə kimi dəyərləndirdi.

Bəli, yaxın gələcəkdə Naxçıvanla bağlı nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası muxtar respublikada inkişafın yeni mərhələsinə start verəcək. İlk növbədə, Naxçıvanla paytaxt Bakı və ölkəmizin digər bölgələri ilə gediş-gəlişin asanlaşdırılmasına imkan yaranacaq. Digər tərəfdən muxtar respublikada istehsal olunan sənaye və kənd təsərrüfatı məhsullarının ölkə və xarici bazarlara çıxarılması asanlaşacaq. Azərbaycanın əsas hissəsindən, o cümlədən Böyük İpək Yolu ölkələrindən Türkiyəyə və əks-istiqamətdə daşınacaq yüklərin və sərnişinlərin Naxçıvandan (bura Naxçıvanla Türkiyəni birləşdirəcək dəmiryol xətti də aiddir) keçməsi muxtar respublikada turizmin inkişafına öz təsirini göstərəcək.

Qeyd edək ki, Naxçıvanın blokadadan çıxarılması istiqamətində atılacaq bu addımlar qardaş Türkiyə mediasında da gündəmin əsas mövzusuna çevrilib. Türkiyə mətbuatında qeyd olunur ki, Azərbaycanın Qarabağda əldə etdiyi tarixi Qələbə Türkiyəyə Naxçıvan üzərindən Orta Asiya və Sakit okeana uzanan strateji dəhliz qazandırıb. Bu dəhlizlə enerji və ticarət yolları kökündən dəyişəcək, Türkiyə Orta Asiyadan Çinə uzanan yeni logistik kanala sahib olacaq. Beləliklə, Naxçıvan tarixən Böyük İpək Yolu üzərində oynadığı rolunu yenidən bərpa edəcək. Buradan isə o qənaətə gəlmək mümkündür ki, böyük Türk dünyasının qapısı sayılan Naxçıvan Şərqlə Qərbi bir-birinə tranzit qovşaq kimi bağlayacaq. Bu mənada, Naxçıvanla bağlı atılan addımlar təkcə regional deyil, həm də beynəlxalq əhəmiyyət daşıyır.

✍ **Səbuhi HƏSƏNOV**

# Muxtar respublikada insan hüquq və azadlıqları etibarlı şəkildə qorunur

***1948-ci il dekabrın 10-da Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi İnsan Hüquqları haqqında Ümumi Bəyannamə qəbul etmişdir. Həmin tarixdən etibarən hər il dekabrın 10-u bütün dünyada "İnsan Hüquqları Günü" kimi qeyd olunur.***

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan müstəqil Azərbaycanda həyata keçirilmiş genişmiqyaslı islahatlar, insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində baş verən köklü dəyişikliklər ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər tərəfindən həyata keçirilmiş hüquq islahatları Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır. Ölkəyə rəhbərlik etdiyi dövrlərdə insan hüquq və azadlıqlarının qorunmasına ən çox diqqət yetirən ulu öndər demişdir: ***"Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və ya anlamalı olduğu əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur".***

1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş, müəllifi ümummilli liderimiz olan Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquqları haqqında Ümumi Bəyannamənin müddəaları əks etdirilmiş və dövlətimizin ali məqsədlərindən biri kimi insan haqlarının qorunması təsbit edilmişdir. Bu Konstitusiya ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuşdur. Ulu öndər tərəfindən imzalanan "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin etmiş, bu sahədə qanunvericilik və institusional islahatlara təkan vermişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Şərqdə ilk dəfə olaraq ölüm cəzasını ləğv edən ölkə kimi tarixə düşmüşdür. Yüksək humanizmin və insanpərvərliyin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırmışdır.

1996-2000-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulan Azərbaycan Respublikası 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etmişdir. Avropa Şurasının bu mühüm sənədinə münasibət bildirməklə Azərbaycan beynəlxalq təşkilatla sıx əməkdaşlığa hazır olduğunu və insan hüquqlarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir.

Bu gün Azərbaycanın müasir inkişafı dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Təqdirəlayiq haldır ki, əsası ümummilli liderimiz tərəfindən qoyulmuş siyasi kursun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən yeni dövrün prioritet çağırışlarına uyğun şəkildə uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə bütün istiqamətlərdə, o cümlədən insan hüquqları sahəsində mühüm islahatlar, yeniliklər həyata keçirilmiş və mühüm nailiyyətlər əldə olunmuş, Azərbaycan bir çox parametrlər üzrə inkişaf edən ölkəyə çevrilmişdir. Ölkə başçısı tərəfindən 2006-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və 2011-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

***"Azərbaycan sülhün, təhlükəsizliyin qarantıdır"***, – deyən dövlət başçısının apardığı uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan bu gün öz iqtisadi qüdrətini daim artıran, eyni zamanda mütərəqqi beynəlxalq normalara uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran dövlətə çevrilmişdir.

27 sentyabr 2020-ci il tarixdən başlayaraq Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyalarını və onlara əlavə edilmiş protokolları, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq ölkəmizin sərhəd rayonlarına, şəhər və kəndlərə, yaşayış məntəqələrinə və sosial obyektlərə müxtəlif növ iriçaplı artilleriya qurğuları və digər silahlardan atəş açmış, nəticədə, mülki əhali, o cümlədən qadın və uşaqlar qətlə yetirilmiş, mülki obyektlər, yaşayış evləri yararsız vəziyyətə düşmüşdür. Ölkəmiz erməni təxribatının qarşısını almaq məqsədilə Vətən müharibəsinə başlamış və rəşadətli Ordumuz 30 il işğal altında olan torpaqlarımızı azad edərək noyabrın 10-da Böyük Qələbə qazanmışdır. Başqa sözlə desək, Azərbaycan Ordusu BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini hərbi yolla uğurla şəkildə icra etmişdir. Bu tarixi Qələbə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun şücaəti nəticəsində mümkün olmuşdur. Böyük Vətən müharibəsi bir daha göstərdi ki, hərbçilərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədirlər. Bütün bunlar həm də dövlət-xalq-ordu birliyinin bəhrəsidir. Xalqla ordu arasında möhkəm əlaqənin, sarsılmaz birliyin mövcud olması ordumuzun gücünü daha da artırır.

Ötən dövr ərzində ölkəmizdə insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmini ilə bağlı həyata keçirilmiş islahatlar Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilmiş, hüquq institutları təkmilləşdirilmiş, insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərinin və ədalət mühakiməsinin səmərəliliyi artırılmış, əhalinin yüksək keyfiyyətli hüquqi yardımla təmin edilməsi istiqamətində geniş tədbirlər həyata keçirilmişdir. Ölkə başçısının "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada bu istiqamətdə inkişafı təmin etmişdir. Belə ki, Fərmanın qəbul edilməsindən ötən dövr ərzində məhkəmə orqanlarının maddi-texniki bazası möhkəmləndirilmiş, Müvəkkil təsisatının fəaliyyəti təmin edilmiş, məhkumların hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə Penitensiar Xidmətin fəaliyyəti təkmilləşdirilmiş, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsi üçün vəkillik institutunun hüquqi statusu müəyyən edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2006-cı ildə muxtar respublikada insan hüquqlarının müdafiəsi üzrə orqanlar sistemində yeni və müstəqil məhkəmədənkənar alternativ hüquq müdafiə vasitəsi olan Müvəkkil təsisatı yaradılmışdır. Ötən dövrdə təsisatın fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılmış, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa edilmiş dəyişikliklərlə təsisatın səlahiyyətləri daha da artırılmışdır. Həyata keçirilmiş bu tədbirlər insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinə xidmət edir.

Bu gün muxtar respublikamızda Ombudsman təsisatı vətəndaşlarla dövlət və yerli özünüidarəetmə orqanları arasında bir körpü yaratmaqla, bu qurumların insan hüquqlarının müdafiəsi işinin daha səmərəli təşkili və həyata keçirilməsi, o cümlədən bu sahədə fəaliyyətin davamlı təkmilləşdirilməsinə xidmət edir.

Naxçıvan Muxtar Respublikasında əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi istiqamətində də mühüm işlər görülür. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikada işsizliyin aradan qaldırılması, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi istiqamətində uğurlu tədbirlərin həyata keçirilməsi cari ildə də davam etdirilir. Belə ki, muxtar respublikada ailə təsərrüfatlarının yaradılması onların maddi rifah halının yüksəlməsinə yönəlmiş əsas tədbirlərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması, "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın qəbul olunması müxtəlif təsərrüfat sahələrində çalışan ailələr üçün yeni imkanlar açmışdır.

Ötən dövr ərzində muxtar respublikada sosial qayğıya ehtiyacı olan vətəndaşların, o cümlədən məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan sərəncamlarla "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" qəbul olunmuşdur. Dövlət proqramlarının icrasına uyğun olaraq bu kateqoriyadan olan şəxslərin sosial təminatının yaxşılaşdırılması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılmışdır.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət qadın siyasəti qadınlarımızı cəmiyyətin fəal üzvünə çevirir, onların ictimai həyatda da iştirakını təmin edir. Bu gün Naxçıvan qadınları onlar üçün yaradılan şəraitdən səmərəli istifadə edir, dövlət quruculuğunda, cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirak edərək muxtar respublikamızın sosial-iqtisadi, elmi-intellektual potensialının artırılmasına, mədəniyyətimizin inkişafına öz töhfələrini verirlər.

Muxtar respublikada gənclər siyasəti də uğurla həyata keçirilir, gənclərin milli ruhda tərbiyəsi diqqət mərkəzində saxlanılır. Gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq Dövlət proqramlarının qəbul olunması, gənc istedadlar dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını təşkil edir. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı tərəfindən mütəmadi olaraq hüquq olimpiadalarının, bilik yarışlarının, intellektual oyunların həyata keçirilməsi gənclərin asudə vaxtlarının səmərəli təşkilinə, gənclər arasında insan hüquq və azadlıqlarının təbliğinə xidmət edir.

Muxtar respublikada məhkumların saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması və onların yaşayış yerlərinə yaxın ərazilərdə saxlanılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. 2008-ci ildə məhkumların və saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi məqsədilə müasir standartlara cavab verən Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi ölkəmizdə ilk dəfə olaraq muxtar respublikamızda istifadəyə verilmişdir. 2016-cı ildə Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yeni yaradıcılıq və istehsalat binası istifadəyə verilmiş, məhkumlara xalçaçılıq və misgərlik sənəti üzrə kurslar təşkil olunmuş, onların istehsalat sahəsində hazırladıqları əl işləri muxtar respublikada keçirilən müxtəlif sərgilərdə nümayiş etdirilmişdir.

Miqrantların hüquq və azadlıqlarının qorunması və təminatı da diqqət mərkəzində saxlanılmış, saxlanılan miqrantların hüquqlarının təmin edilməsi məqsədilə 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrantların Saxlanılması Mərkəzi istifadəyə verilmişdir. Qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq mərkəzdə hər cür şərait yaradılmış, burada sosial-məişət otaqları, könüllü və məcburi saxlanılanlar üçün yataq otaqları, görüş, tibb, uşaq-əyləncə, yoxlama, sorğu, karantin, növbətçi və istirahət otaqları, yeməkxana, bərbərxana, ərzaq və əşya anbarları istifadəyə verilmişdir.

Muxtar respublikada azad mətbuatın fəaliyyət göstərməsi, söz və fikir azadlığının təmin olunması, sürətli internetə çıxış imkanlarının yaradılması insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. Muxtar respublikada məqsədyönlü media siyasətinin, kütləvi informasiya vasitələrinin inkişafına hərtərəfli dövlət qayğısının nəticəsidir ki, bir əsrə yaxın tarixə malik "Şərq qapısı" qəzeti ilə yanaşı, Naxçıvanda Universitet televiziyası və "Nuhçıxan" radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio, şəhər və rayon qəzetləri, ali təhsil və elm müəssisələrinin qəzet və jurnalları, "Nuhçıxan" İnformasiya Agentliyi, "Naxçıvan Xəbərləri" Media Qrupu, Naxçıvan Mətbuat Şurası, Televiziya və Radio Şurası, 400-ə yaxın jurnalist fəaliyyət göstərir. 2019-cu ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması Ali Məclis Sədrinin mətbuata, kütləvi informasiya vasitələrinə göstərdiyi diqqət və qayğısının parlaq təzahürü olmaqla yanaşı, həm də ictimai tribuna kimi insan hüquqlarının təminatı sahəsində görülən işlərin davamıdır.

***Muxtar respublikanın iqtisadi inkişafı, sosial-iqtisadi layihələrin ardıcıl həyata keçirilməsi əhalinin rifah halının getdikcə yaxşılaşmasına, nəticə etibarilə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsi və etibarlı müdafiəsinə geniş imkanlar yaratmışdır. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı tərəfindən insan hüquq və azadlıqlarının etibarlı təmin edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılacaq, bu sahədə səmərəli hüquqi mexanizmlərin tətbiqi bundan sonra da davam etdiriləcəkdir.***

***Naxçıvan Muxtar Respublikası***
***İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Onlayn tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş onlayn tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan mərkəzin elmi katibi Nihad Tarverdiyev qeyd edib ki, ulu öndər Heydər Əliyevin bənzərsiz ömür yolu, gərgin ictimai-siyasi fəaliyyəti müasir tariximizin mühüm və şərəfli mərhələsini təşkil edir. 2003-cü ilin 12 dekabr tarixi azadlıq, müstəqillik xoşbəxtliyini xalqına bəxş etmiş dahi bir insanı xalqından yalnız cismən ayırmaqla onun parlaq xatirəsini yaddaşlara və ürəklərə əbədilik həkk etdi.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin nəsillərə nümunə olan şərəfli həyatında Naxçıvana bağlılıq, Azərbaycanın bu qədim diyarına tükənməz məhəbbət və ardıcıl qayğısı xüsusi yer tutub. Ulu öndər Heydər Əliyev hansı vəzifədə işləməsindən, harada yaşamasından asılı olmayaraq, daim Vətən və xalq üçün çalışıb, son dərəcə böyük, taleyüklü məsələlərin öhdəsindən məharətlə gəlib. O, həmişə ulu Naxçıvanın yüksəlişi və tərəqqisi naminə xüsusi səy göstərib, çoxşaxəli tədbirlər həyata keçirib.

Daha sonra AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi Yaşar Rəhimov, Heydər Əliyev Muzeyinin Baş fond mühafizi Nərmin Cəfərova çıxış ediblər. Bildirilib ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyev müasir Azərbaycan intibahının başlanğıcını qoyan dahi şəxsiyyət kimi adını Azərbaycan xalqının qəlbinə və tarixinin çoxcildli salnamələrinin ən şərəfli səhifəsinə əməlləri ilə yazdıran böyük liderdir. Ümummilli liderin hakimiyyətdə olduğu 30 illik dövr xalqımızın illərlə həsrətini çəkdiyi dövlət müstəqilliyinin əldə edilməsi, onun azad inkişafı və yüksəlişi naminə apardığı mübarizələr və qələbələr tarixidir. Azərbaycan nail olduğu sürətli yüksəlişə, bugünkü inkişafına, tarixi qələbələrinə görə məhz dahi rəhbər Heydər Əliyevə borcludur.

**Xəbərlər şöbəsi**

# Azərbaycan tarix yazdı: Böyük Qayıdış – 2020

***Şəhidlərimizin qanı yerdə qalmadı!!! Başda Ali Baş Komandanımız cənab İlham Əliyev olmaqla, müzəffər Ordumuz Azərbaycanın qanayan yarası Qarabağımızı azad etdi. Son illərin ən yüksək dövlət-xalq-ordu birliyinin şahidi olmaqla, yaşadığımız bu şanlı tarixin hər dəqiqəsini dərin duyğular içində keçirdik. Əksər ölkələrin həm mənafe, həm də siyasi baxışlarını önə çəkərək mənfur düşmənlərimizə arxa çıxması bizi təəssüfləndirir. Dinc şəhərlərimizin raketlə vurulması belə, beynəlxalq ictimaiyyəti narahat etmədi, əlaltından düşmən ölkəni silahlandırmağa davam etdilər. Lakin Böyük Qələbəyə nail olmaq, Azərbaycan insanının, Türk dünyasının daha əzmli, qürurlu tarixini yaşamaq bizi sevindirir. Yanımızda Türkiyə, Pakistan kimi dövlətlərin böyük və səmimi dəstəyini, bir çox ölkə və qurumların təqdirini hiss edərək haqlı işimizdə daha inamla irəlilədik. Fransa və bənzər ölkələrin isə ermənilərə aşırı canıyanarlığı hələ də ürək bulandırır.***





Tarixi faktlar, sazişlər, müqavilələr bütün suallara cavab verirsə də ikili standartlara malik dünya ölkələri bunları görmək, qəbul etmək istəmirdi. Dünyada qlobal problemlərin pik həddə çatdığı son illərdə insanlıq adına qara ləkə olacaq utancverici hadisələr baş verir. Bir millətin nə ziyalısı, nə qadını, anası, ...bu məntiqsiz, doymaq bilməyən nəfsə, bu qədər insan ölümünə, şəhər, kəndlərin dağılmasına etiraz etmirsə, xəstə ruhlarının cəhənnəmdə məskunlaşması labüddür.

Prezidentimiz cənab İlham Əliyev haqlı olaraq vurğulayır: ***“Biz nəinki torpaqlarımızı azad edirik, həmçinin regionu erməni faşizmindən təmizləyirik. Azərbaycan artıq yeni reallıq yaratmışdır. Bu reallıqla barışmayanlar özlərindən küssün”.*** Yaşadığımız indiki həssas dövrdə daxildəki sabitliyi də qorumaq, bir-birinə qayğıkeş münasibəti saxlamaq hər birimizin borcudur. Çünki qazandığımız bu zəfər cənab Prezidentin də dediyi kimi, yumruq kimi birliyimizin nəticəsidir.

Tarixi sənədləri, müqavilə-sazişləri heçə sayan, öz xəstə xülyalarının nəticəsi olaraq çatmayacaqları arzularını həyata keçirməyi qanlarına yeridən bu geni dəyişilməli məxluqlar harada yaşayırlarsa, o torpaqları zəbt etmək fikrinə düşürlər. Əslində, ölkəmiz tarixən böyük güclərin mənafelərinin toqquşduğu coğrafiyada yerləşdiyi üçün son yüzilliklərdə xalqımızın çox ağır tarix yaşamasına səbəb olmuşdur. Adətən, insanın ən güvəndiyi yer ölkəsi, Vətəni, evi hesab olunur. İngilis atalar sözü var: “Mənim evim mənim qalamdır”. Gəl gör ki, yeraltı və yerüstü təbii sərvətlərlə zəngin Azərbaycanda öz vətəndaşı cənnətməkan Vətənində rahat yaşamağa həsrət qoyulmuşdur zaman-zaman. Bundan başqa, dünyada ən rəzil, mənfur “millət”lə qonşu olmağa məhkum olmuşuq. Belə bir deyim var: “Qonşun pisdir, köç qurtar”. Lakin bu sadə qonşuluq deyil axı. Azərbaycan öz bağrından zorla qoparılıb yaradılan saxta erməni dövlətinin düşmənçiliyindən hara köçməlidir? Onlar xalqımıza qarşı törətdikləri işğal və faciələrə, ədalətsizliklərə görə özləri özlərini məhvə məhkum etmişlər. Əks-təqdirdə insanlığa dəvət olunaraq dinc yanaşı yaşamaq məcburiyyətindədirlər. Bu günlərdə onların müharibədə 9 minə yaxın canlı qüvvə itkisinə məruz qaldığı açıqlandı. Düşmənin məhv etdiyimiz və ya qənimət kimi götürdüyümüz hərbi texnikasının dəyəri isə milyardlarla ölçülür. Layiqli cəzalarını alıblar, baş tutmayan “böyük Ermənistan” arzularını cəhənnəmdə gerçəkləşdirərlər, – deyə düşündüm! Orada silah-sursat da bol olar, yəqin!

Qafqazda “böyük Ermənistan” necə yaradıldı: 10 az bilinən faktı, qısaca, nəzərə çatdıraq: Ermənilərin xülyası. XVIII əsrin ilk iki onilliyində ictimai quruluşun və dövlət idarəçiliyi sisteminin müasirləşdirilməsi istiqamətində böyük səylər nəticəsində arxaik Rusiya çarlığı dünya imperiyasına çevrildi. Bu müddət ərzində I Pyotr dünyanın ən güclü ordularından birini yaratdı, Avropa standartlarına uyğun yeni paytaxt təsis etdi və Baltikyanı ölkələrin hesabına öz hakimiyyətini Qərbə doğru xeyli genişləndirdi. 1722-1723-cü illərdə Rusiya ilk dəfə olaraq Şərqdə ekspansiyaya başladı. Eyni zamanda ruslar Şərq xristianlarına bel bağlayırdılar. Beləliklə, Erməni çarlığının yaradılması fikri ortaya çıxdı. Bu, Rusiyanın Asiyaya irəliləməsinin plasdarmı olmalı idi. 1724-cü ildə Rusiya imperatoru I Pyotr Kiçik Asiyadan ermənilərin kütləvi sürətdə Cənubi Qafqaza köçürülməsi planını “orada xristianlığı gücləndirmək və imkan daxilində müsəlmanlığı sıxışdırıb çıxarmaq” üçün irəli sürdü. Rusiyanın erməni plasdarmını yaratması üçün ilkin olaraq Qarabağ seçildi. 1784-cü ildə knyaz Potyomkin orada müsəlman xanı devirməyi və “onun yerinə ermənilərdən hökmdar təyin etməyi” planlaşdırırdı. 1826-1828-ci illərdə İran ilə müharibə nəticəsində Rusiya, İrəvan və Naxçıvan xanlıqlarını ələ keçirdi. Bundan dərhal sonra ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsinə başlandı. 1828-1830-cu illərdə İran və Türkiyədən 140 minə yaxın erməni köç etdi. Onlar Qarabağ, Naxçıvan və İrəvanda məskunlaşdılar. Rusiya hakimiyyəti erməni köçkünlərinə ən əlverişli şəraiti yaratdı: onlara ən yaxşı torpaqlar verildi, türklər oradan sıxışdırılıb çıxarıldı; miqrantlar vergi ödəməkdən tamamilə azad edildi; aztəminatlı köçkünlərə o vaxtlara görə böyük məbləğ olan 25 rubl məbləğində yardım göstərildi. Yerli müsəlman əhalisi ilə olan münaqişələrin əksəriyyətində Rusiya hakimiyyəti erməniləri dəstəkləyirdi. 1877-1879-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra Kiçik Asiyadan Cənubi Qafqaza daha 200 minə yaxın erməni köçürüldü. 1893-1894-cü illərdə Türkiyədə baş vermiş erməni iğtişaşlarından sonra növbəti köçkün axını Qafqaza üz tutdu. Tək 1896-1908-ci illər ərzində Cənubi Qafqaza daha çox erməni köç etdi. 1911-ci ildə Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin bir milyondan çoxu yerli sakin deyildi. “Cənubi Qafqazda erməni massivi necə yaradıldı (sənədli sübutlar)” nəşrində daha müfəssəl məlumatlar, həmçinin yuxarıda sadalanan faktların doğruluğunu təsdiq edən, skan olunmuş sənədlər yer alır.

Göründüyü kimi, heç bir tarixi, mədəniyyəti, dövləti, əzəməti və sair olmayan, yalnız əlaltı, istənilən əmrə uyan, qadınlarını hər işdə önə buraxan, mənəviyyatsız bir varlığın həm məcburi qonşu, həm könüllü düşmənimiz olması bizi daha çox hövsələdən çıxarır. Əgər dünyanın gözü və ürəyi varsa, onda azərbaycanlılara qarşı törədilmiş bu qədər vəhşiliklərə niyə biganə yanaşılır? Ermənilər hələ 1905-ci ildə Bakıda dəhşətli qırğınlar törətmişdilər. Qafqazdakı bütün türkləri, o cümlədən Tiflis, Borçalı, Axalkalaki türklərini məhv edərək, ancaq ermənilərdən ibarət Ermənistan yaratmaq istəyirdilər. Azərbaycan türklərinin soyqırımı 1918-ci ilin 17-21-də (30 mart-1 aprel) daha dəhşətli şəkildə həyata keçirildi. Təkcə Bakı, Gəncə, Quba, Şamaxı, Lənkəran, Göyçayla deyil, Xoy, Urmiya, Səlmas kimi şəhərlərdə də qanlı faciələr törədilmişdi. Tanınmış tarixçi-alim İsrafil Məmmədovun soyqırımla bağlı fikirləri isə daha düşündürücüdür: “Saymaq, sadalamaqla qurtarmaq bilməyən bu qanlı faciələr, bu dəhşət və vəhşətlərin qüssəli tablosunu, ancaq daşqəlbli insanlar laqeydliklə seyr edə bilərlər. Kədər, nisgil, həsrət, fəryad, nalə, inilti dolu bu tabloda istisiz-tüstüsüz qalmış, odu-alovu yox olmuş minlərlə ocaq var. Bu, yaşanmış, yaddaşlara həkk olunmuş, inkaredilməz bir gerçəklikdir ki, 19-cu yüzillikdə, 20-ci yüzilliyin əvvəlində və sonunda da xalqımız, sözün əsl mənasında, soyqırıma məruz qalıb. 2,5 milyon soydaşımız qətlə yetirilib və ya öz ata-baba yurdundan didərgin salınıb”.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin, müzəffər Ordumuzun səy və qətiyyəti nəticəsində məhz bütün bu tarixi ədalətsizliklərə son qoyuldu. Dilbər guşəmiz olan Şuşanın azad edilməsi ilə diz üstə çökən mənfur düşmən mənasız inadından dönməyərək müharibəni davam etdirmək istəsə də, sonda təslim bayrağını qaldırmağa məcbur oldu. Əslində, bizə kənar maneələr, düşmənə yardımlar olmasaydı bu müddət ərzində əzəmətli ordumuz bütün işğal olunmuş torpaqlarımızı öz hərbi qüdrəti ilə azad etmişdi. Dünyanın ilk 50 ordusu səviyyəsində olan müzəffər Ordumuz Ali Baş Komandanın rəhbərliyi altında Qarabağda öz qanları ilə zəfər dastanı yazdılar. Prezidentimizin söylədiyi kimi, Qarabağda Naxçıvandan olan hərbçi gənclərimizin, xüsusilə fərqlənməsi də bizi qürurlandırdı. Yerli və xarici media Azərbaycan Ordusunun döyüşlərdə iştirakından böyük heyrətlə yazırlar. Onlar bunun səbəbini anlamalıdırlar: – Azərbaycanda 30 ildən bəri sürən Qarabağ həsrəti, yanğısı!!! Nəhayət, müqəddəs bayrağımız gözəl Şuşa, Ağdam, Kəlbəcər, Laçın və digər dilbər guşələrimizdə – bütün Qarabağ torpağında dalğalandırıldı. Bütöv Azərbaycan uğrunda Vətən müharibəsində tam və qəti Qələbəyə nail olduq. Bu Qələbə Azərbaycanın 30 illik qanayan yarasına, nəhayət, məlhəm oldu. Mərhəmətimizdən sui-istifadə edərək halal torpaqlarımıza yiyələnən erməniləri birdəfəlik məğlubiyyətə uğratdıq, məhvə məhkum etdik. Onların 44 günlük müharibə zamanı törətdikləri, bütün dünyanı saran dəhşətli cinayətləri isə bəşəriyyəti təəccübləndirməkdə davam edir.

Sonda Ermənistanda yaşayanlara bunları demək istərdim: – dünyada qlobal problemlərin getdiyi bir zamanda nədən bütün millətlərə, dövlətlərə qısqanclıqdan, düşmənçilikdən əl çəkmirsiniz? Özgələrin torpağına vəhşicəsinə təcavüz etməklə nə qazandınız? Hələ də israrla torpaq davası edirsiz Ermənistanda. Təslim aktını imzaladıqdan sonra belə, gülünc xülyalarla yaşamaqda davam edirsiniz. Biz şəhidləri Vətən müharibəsində, ərazi bütövlüyümüzün təmin olunması, torpaqlarımız uğrunda verməyə məcbur idik. Bəs siz niyə bütün dünyadan diləndiyiniz ianələrlə özgə torpağını mənimsəmək üçün “insanlarınızı” qırğına verdiniz? Özgə torpağına bu təşnəliyin səbəbi nədir?

*Artıq bütün dünyanın təsdiqlədiyi “Qarabağ Azərbaycandır!” şüarı – tarixi gerçəkliyini qəbul etməlisiniz! Çünki müqəddəs Azərbaycan torpağı mənfur millətin iyrənc nəfəsindən saralıb-solub, tamamilə viran qalmışdı!!! Biz isə Böyük Qayıdışla Qarabağımıza yeni nəfəs gətiririk!!!*

**Zərövşən BABAYEVA**
***Naxçıvan Dövlət Universitetinin dosenti, pedaqogika üzrə elmlər doktoru***

## Azərbaycan xalçaları: tariximizdən günümüzə



***Naxçıvan Müəllimlər İnstitutunda “Azərbaycan xalçaları: tariximizdən günümüzə” adlı tədbir keçirilib.***

Tədbirdə, həmçinin müəllim və tələbələrin əl işlərindən ibarət sərgi təşkil edilib. Sərgidə 30-dan çox rəngkarlıq, qrafika və dekorativ-tətbiqi sənət nümunələri, eləcə də müxtəlif xalçaçılıq məktəblərinin nümunələri maraqlı forma və kompozisiyalarda nümayiş olunub. Diqqəti cəlb edən əsərlər sırasında Naxçıvan xalçaları ilə yanaşı, Qarabağ xalçaları, o cümlədən Laçın və Kəlbəcərə aid xalça nümunələri öz əksini tapıb.

İnstitutun rektoru Azad Novruzov giriş sözü ilə tədbiri açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” ilə muxtar respublikamızda, eləcə də Naxçıvan Müəllimlər İnstitutunda bu sahədə görülən işlər sürətlənib, bir çox yeni layihələr meydana çıxıb.

Tədbirdə İncəsənət kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar rəssam Həbibə Allahverdiyeva ötən dövr ərzində institutda görülən işləri nəzərə çatdırıb. Qeyd olunub ki, institutda xalçaçılıq sənətinin öyrənilməsi, müvafiq fənlərin tədrisi, tarixi abidələrimizi əks etdirən xalçanın toxunması, bununla yanaşı, seminar, konfrans və sərgilərin keçirilməsi, kafedranın baş müəllimi Ləman Məmmədovanın “Azərbaycan xalçaçılıq sənəti” dərs vəsaitinin nəşr olunması, Naxçıvan Dövlət Xalça Muzeyinə tələbələrin ekskursiyalarının təşkili həyata keçirilib.

Tədbirdə Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Ülviyyə Məmmədova xalçaçılıq sənətinin tarixi, keçdiyi inkişaf yolu haqqında danışıb.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

**Xəbərlər şöbəsi**

## Hamiliklə bağlı növbəti açıq dərs

*Dünən Naxçıvan Müəllimlər İnstitutunun Kitabxanaçılıq və informasiya ixtisası üzrə təhsil alan tələbələrinə “Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması” mövzusunda açıq dərs keçilib.*



Açıq dərsdə Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Tamella Əsgərova Ali Məclis Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının əhəmiyyəti və icrası ilə bağlı görülmüş işlər haqqında məlumat verib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin hamiliyinə verilmiş Kitabxana və informasiya ixtisası üzrə təhsil alan tələbələrlə 2020-2021-ci tədris ilində kitabxanada da bir sıra tədbirlər – açıq dərslər, kitab müzakirələri keçirilib. Belə tədbirlərin keçirilməsində məqsəd peşəkar və təcrübəli gənc kitabxanaçı kadrların hazırlanmasına nail olmaqdır.

Kitabxananın Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsinin müdiri Heyran Ələsgərova “Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması” mövzusunda çıxış edərək bildirib ki, şöbə 2012-ci il dekabr ayında elektron kitabxana yaradıldıqdan sonra təşkil edilib. Şöbənin əsas iş prinsipinə avtomatlaşdırılmış kitabxana proseslərinin administrasiyası, yəni kitabxanada həyata keçirilən avtomatlaşdırma proseslərinə nəzarət, elm sahələri üzrə məlumat bazalarının formalaşdırılması, kitabxanada olan çap məhsullarının elektron kitabxanada əks etdirilməsi, elektron kataloqun tərtibi və ondan düzgün istifadəyə nəzarət olunması, onlayn kataloqdan istifadə etməklə informasiya mənbələrinin seçilməsində istifadəçiyə köməklik göstərilməsi, daimi olaraq virtual (e-mail) şəkildə istifadəçiləri maraqlandıran sualların cavablandırılması daxildir.

Sonda suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Əfsanəyə dönən ömürlər*

# Adına, Vətəninə layiq igid



Yolumuz qədim Naxçıvanın qeyrət qalası Sədərəyədir. Bu dəfə ezamiyyətə yox, Vətən müharibəsinin qəhrəmanlarından biri Ərtoğrula son borcumuzu ödəməyə gedirik… Qəhrəmanın ocağına ilk dəfə getsək də, heç kimdən soraq almırıq, çünki kəndə girər-girməz yolboyu dalğalanan bayraqlar bizə şəhid ocağının yerini nişan verir. Uğruna canını verdiyi bayraqlar yol göstərir gələnlərə… Hümbət atanın yollara dikilən gözlərinə əbədi həsrət çöküb. O, 52 gün yol gözləyib, hər gün əllərini Uca Tanrıya açıb: "Təki balam gəlsin, quzu qurban kəsəcəyəm", – deyib. Ərtoğrulun cənazəsi gələn gün tabutu önündə qurban kəsib igid balasına. Deyir ki, oğlum əliboş qayıtmadı, özüylə zəfər gətirdi. İllərdir, dadını az qala unutduğumuz Qələbəni gətirdi bizə balalarımız. Onlar illərdir, əsir olan torpaqlarımızın dərdinə dərman oldular.

Bir ananın toyunu, xeyrini, bəhrəsini görə bilmədiyi balasını qara torpağa verməsi nə qədər acıdır, bunu, ancaq yaşayan bilər. Amma Nahidə ana qürurludur, dərdini içində boğmağı bacarır: "İgid oğlum öz arzusuna çatıb. Bağrım yanır, amma ağlamıram, çünki istəyinə çatıb balam", – deyir Nahidə ana. Onun toy-büsatı cənazəsi gələn günü oldu. Hansı ki al bayrağa bələnib gəldi. Maşın karvanı qapımıza çatanda mən oğlumun toy karvanı kimi qarşıladım onları. Qalib, paşa kimi gəldi oğlum. Bütün Naxçıvan gəlmişdi onu qarşılayıb yola salmağa.

Nubar xanım qardaşı ilə birgə gəlib evlərinə, Bakı şəhərində yaşayır:

– Qardaşımla son dəfə danışanda o, Goranboy rayonuna ezam edilmişdi. Həmin gündən sonra bir daha səsini eşitmədim. Düz 52 gün biz ondan xəbər ala bilmədik. Onun cənazəsini Bakıya gətirəndə orada yaşayan ən yaxın qohumu təkcə mən olduğum üçün cənazənin qardaşıma aid olduğunu təsdiq etməli idim. Xəstəxanaya gedəndə necə bir mənzərə ilə qarşılaşacağımı düşünmək belə, istəmirdim. Həmişə eşitdiyim "şəhidlər ölmür, onların ruhları əbədi yaşayır" fikirini xatırlayır, özümə təsəlli verirdim. Mən o gün orada bir möcüzə ilə – Vətən, xalq, el, dövlət yolunda can verənlərin ruhunun əbədi yaşadığına şahidlik etdim. Bu gün o, təkcə mənim deyil, bütün azərbaycanlı qızların qardaşıdır. Vətənimiz uğrunda canından keçən igidlər bizim canımızdan bir parçadır. Onların hər biri bütöv Azərbaycanın övladıdır. Şəhid ailəsi, bacısı olmaq böyük şərəfdir. Bizim yurdumuzun şəhidləri heç bir zaman ölməyəcək. Onlara böyük ehtiram göstərilir, ruhları önündə daim baş əyilir, ailələri uca tutulur deyə.

*Şəhid haqqında bir neçə kəlmə* – Ərtoğrul Nadirli 31 mart 1997-ci il Sədərək rayonunun Qaraağac kəndində anadan olub. 2012-ci ildə Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseyə daxil olub. 2015-ci ildə oranı əla qiymətlərlə bitirib, Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 24 iyun 2019-cu ildə Ali Hərbi Məktəbi bitirib, leytenant rütbəsi alıb. Tovuz bölgəsinə göndərilib. 6 ay xidmətdən sonra Bakıya kursa gələn Ərtoğrul buranı bitirərək Daşkəsən rayonuna xidməti vəzifəsinə yola salınıb. 27 sentyabrda Vətən müharibəsində iştirak etmək üçün Goranboy rayonuna ezam olunub. Murovdağ yüksəkliyinin alınmasında döyüş yoldaşları ilə birgə çətin əməliyyatlarda iştirak edib, qəhrəmanlıq göstərib. Eyni zamanda onlarla yaralı yoldaşını döyüş bölgəsindən çıxarıb. Orada xeyli sayda erməni faşistlərini məhv ediblər. Ancaq son anda uzaq məsafədən snayperdən açılan atəşlə şəhadətə qovuşub.

Ta qədimdən dünyaya göz açan körpəyə ad veriləndə "Adıyla böyüsün", – deyirdilər. Ərtoğrul da adı ilə böyüdü. Uşaqlığı cəbhədə düşmən postlarının beş addımlığında keçdi. Hər gün Sədərək döyüşlərində can qoyan igidlər haqqında əfsanələr dinləyərək böyüdü. Bu torpağın bütövlüyü uğrunda, bayrağımız enməsin deyə, canından keçən igidlərin həyat hekayələri ona hərbçi olmaq üçün stimul verdi. O, adının sahibi kimi bir türk fatehi oldu. İllərdir, Vətənin qanayan yarasına məlhəm olan qardaşlarına qoşuldu.

Ərtoğrul, bu xalq, bu Vətən sənin kimi igid oğulların haqqını dünya durduqca sizi yaşatmaqla ödəyəcək. Sənin kimi igidlərin şəhadəti ilə Qarabağ əbədi olaraq Anasına qayıtdı. Bu Ana Vətən övladını qanı, canı bahasına ona qaytaran, öz analarının ürəyinə isə qor olan balalarını heç vaxt unutmayacaq.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Ekskursiya təşkil olunub



Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin təşkilatçılığı ilə Ordubad şəhəri üzrə piyada marşrutunun proqramına əsasən "Turizm könüllüsü" layihəsinin iştirakçıları üçün ekskursiya təşkil olunub.

Ordubadın zəngin turizm potensialı, rayonun tarixi, özünəməxsus dəyərləri, görkəmli şəxsiyyətləri haqqında məlumatlarla yaxından tanışlıq məqsədilə tərtib edilmiş piyada marşrutunun proqramına uyğun olaraq könüllülər Ordubad Rayon Tarix-Diyarşünaslıq, akademik Yusif Məmmədəliyevin, görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin və Məmməd Səid Ordubadinin ev-muzeylərini ziyarət ediblər.

Proqrama əsasən könüllülər Ordubad buzxanası, Ordubad hamamı, Sərşəhər meydanı və Ordubad şəhər Cümə məscidi ilə də tanış olublar, bu obyektlər haqqında tələbələrə ətraflı məlumat verilib.

Ekskursiya zamanı iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# Xan sarayı naxçıvanlı generalların qəhrəmanlıqlarını təbliğ edir



***Çoxəsrlik tarixə malik olan Naxçıvan xalqımızın ulu keçmişini parlaq şəkildə əks etdirən abidələrlə zəngindir. Belə abidələrdən biri də Azərbaycan tarixinə adlı-sanlı generallar, hərbçilər, dövlət xadimləri bəxş etmiş Kəngərli nəslinin, Naxçıvan xanlarının iqamətgahı olmuş Xan sarayıdır. Xalq tətbiqi sənətinin bir çox növlərinin birləşdiyi Xan sarayı orijinal memarlıq üslubu ilə seçilir.***

Naxçıvan şəhərinin Xan dikində yerləşən Xan sarayı 1780-ci ildə I Kalbalı xan Kəngərli tərəfindən tikdirilib. Tədqiqatçıların araşdırmalarından məlum olur ki, sarayın memarı Mirzə Cəfər Xoylu imiş. Şərq memarlıq üslubunda tikilmiş abidə XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi və xanlığın siyasi iqamətgahı olub.

Xan sarayı böyük bir əraziyə malikdir. Üzü günçıxana tərəf inşa edilən saray əsas və yardımçı binadan ibarətdir. Bina ikimərtəbəlidir. Vaxtilə saray iki ayrı-ayrı bölmədən ibarət olub. Cənub bölmədə inzibati işlər həyata keçirilib və yüksək mənsəbli qonaqlar qəbul edilib, şimal bölmədə isə xan ailəsi yaşayıb. Bölmələrə giriş ikimərtəbəli, balkontipli, çatmatağlı dəhlizdən ibarət olub.

Hazırda sarayda muzey yerləşdiyinə görə yalnız cənub dəhlizdən istifadə edilir. Bölmələr arasında daxili keçid yaradılıb. Dəhlizlər əsas fasaddan qabağa çıxdığı üçün binaya xüsusi gözəllik verir. Dəhlizlərə mərmər döşənmiş pilləkənlərlə qalxılır, pilləkənlərin ətrafı mərmər məhəccərlərlə bərkidilib. Xan sarayının ümumi sahəsi 382 kvadratmetr, divarlarının qalınlığı 60 santimetrlə 1,1 metr arasında dəyişir. Bina bişmiş kərpicdən tikilib, pəncərələrdə şəbəkə üsullu vitrajlardan və bütün otaqlarda Naxçıvan yaşayış evlərinə xas olan müxtəlifölçülü taxçalardan istifadə edilib. Sarayın hər iki mərtəbəsində səkkiz otaq və vestibüllərin üzərində iki mansar yerləşir. "Naxçıvan tarixi" çoxcildliyinin II cildində qeyd olunub ki, Naxçıvan şəhəri Şərq və Yaxın Şərq ölkələrinə gedən yolların üzərində yerləşdiyindən səyyahların və diplomatik heyətlərin diqqətini cəlb edib, onlar yazdıqları əsərlərdə bu saray haqqında məlumat veriblər. Məsələn, XX əsrin əvvəllərində Naxçıvana gələn italyan tarixçi, diplomat və səyyah Villari Luiçi özünün yol qeydlərini nəşr etdirərkən Naxçıvandakı Xan sarayı haqqında da yazıb: *"Mən, əvvəlcə, Rəhim xanla görüşdüm... Onun evi, sözsüz ki, Naxçıvanda ən gözəldir. Əgər bu saray ən sivilizasiyalı şəhərdə olsaydı, yenə də belə möhtəşəm olacaqdı. Saray qayanın yanında yerləşir. Buradan geniş Araz vadisinə eniş yol başlanır. Həyətdəki bağ çox sıx deyil. Yəqin, iqlim imkan vermir ki, hər növ gül kolları əkilsin. Ancaq evin içərisi tamamilə bər-bəzək içindədir. Qonaq otağı bahalı Avropa mebelləri ilə doludur, bəzilərini çıxmaqla mebellərə söz ola bilməz. Bütün divarlara İran, Türkiyə və Qafqaz xalçaları asılıb. Tavan isə kiçik güzgülərlə bəzədilib..."*

Naxçıvan xanlığı ləğv olunduqdan sonra bir sıra məqsədlər üçün istifadə edilən bu sarayda Kəngərli süvarilərinin komandanlığı yerləşdirilib, 1918-1920-ci illərdə Naxçıvan Milli Müdafiə Şurasının qərargahı buraya köçürülüb. Saray tarixi bina kimi dövlət qayğısı ilə əhatə olunaraq əsaslı şəkildə bərpa və təmir edilib. Xan sarayında 1998-ci ilin aprelindən 2010-cu ilədək Naxçıvan Dövlət Xalça Muzeyi fəaliyyət göstərib. Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan xanlığının tutduğu xüsusi mövqeyi nəzərə alınaraq bu mədəniyyət ocağı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi kimi fəaliyyətə başlayıb. Dekabrın 17-də muzeyin açılışı olub.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli Qərarı ilə saray "Naxçıvan Muxtar Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin siyahısı"na daxil edilib, 2015-ci il 2 fevral tarixindən isə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin tərkibində fəaliyyətini davam etdirir.



Siyasi dövlətçilik tariximizin təbliği ilə bağlı muxtar respublikada yaradılan böyük muzey komplekslərindən biri olan bu mədəniyyət müəssisəsi Naxçıvanın qədim, orta əsrlər, xanlıqlar dövrlərinə dair arxiv sənədlərinin, maddi mədəniyyət nümunələrinin, elmi-tədqiqat mənbələrinin toplanılması, mühafizəsi, tədqiqi, təbliği ilə bağlı əhaliyə muzey xidməti göstərilməsi kimi mühüm vəzifələri yerinə yetirir. Azərbaycanın dövlət müstəqilliyinin yenidən bərpası bütün sahələrdə olduğu kimi, bu kompleksin qarşısında da mühüm vəzifələr qoyub, milli dövlətçilik tariximizin öyrənilməsi və təbliğinə geniş imkanlar yaradıb. Bu baxımdan Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi sahəsində dövlət siyasətinin muzey vasitəsilə həyata keçirilməsi əsas vəzifələrdən biri kimi ön plana çəkilib.

Muzeydə Naxçıvan xanlığının tarixi, xanlığı idarə edən məşhur Kəngərlilər nəslinin görkəmli nümayəndələrinin hərbi-siyasi fəaliyyətlərini əks etdirən yazılı məlumatlar və fotolar, nəslin qadın nümayəndələri haqqında məlumatlar və müxtəlif sənədlər, xanlığın atributları, bayraqlar və gerblər, xanlığın müdafiə və mühafizəsində istifadə olunan müxtəlif markalı silah növləri – xəncərlər, qılınclar, "Mauzer" tapança, həmçinin müxtəlif dövrləri əks etdirən dekorativ sənət nümunələri, xalçalar, mis və gümüş əşyalar, mətbəx dəstləri, rəsm əsərləri və digər qiymətli eksponatlar nümayiş etdirilir.

Fəaliyyəti dövründə muzeyi hər il 150-200 mindən artıq müxtəlif kateqoriyalı tamaşaçı ziyarət edir. Burada elmi konfranslar, distant və açıq dərslər, eksponat təqdimatları keçirilir. Həmçinin muzeyin ərazisində müxtəlif dövlət tədbirləri, bayram və şənliklər təşkil olunur.

Bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edən, tarix və mədəniyyətimizin təbliğ olunduğu bu məkan yalnız Azərbaycanın bölgələrindən olan qonaqların deyil, həmçinin müxtəlif səfirliklərin, beynəlxalq təşkilatların, xarici ölkələrdən gələn turistlərin də diqqətini cəlb edir.

Bu il yaradılmasının 10 ili tamam olan mədəniyyət müəssisəsinin fondunda ilk vaxtlar 700-ə yaxın eksponat var idisə, hazırda fond qeydiyyatlarında olan 3 minə yaxın eksponatın 2400-dən çoxu əsas, digərləri isə elmi köməkçi fonda daxildir. Bu eksponatların 357 ədədi məhz Xan sarayının ekspozisiya zallarında, 80-i Möminə xatın türbəsində, 237-si isə Açıq Səma Altında Muzeydə nümayiş edilir. Eksponatların əksəriyyəti Azərbaycanın, o cümlədən Naxçıvanın qədim və orta əsrlər, xanlıqlar dövrü tarixlərinin öyrənilməsi üçün əsas mənbələrdir. Kompleksə daxil olan muzeylər həm mədəniyyət ocaqları, həm də tarixi abidələr kimi dünya mədəniyyəti tarixi üçün olduqca əhəmiyyətli hesab olunur və fondların zənginləşdirilməsi diqqət mərkəzində saxlanılır.

***Zülfiyyə ƏLİYEVA***
***muzeyin baş fond mühafizi-elmi işçi***

## İntellektual oyun keçirilib

Naxçıvan Tibb Kollecində muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında yol hərəkəti qaydalarının təbliği ilə bağlı "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.

Ali və orta ixtisas təhsili müəssisələrinin hər birindən bir komandanın iştirak etdiyi oyun 2 turdan ibarət olmaqla, hər turda 12 sual səsləndirilib. Suallar Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müəyyənləşmiş yol hərəkəti qaydaları, həmçinin bu qaydalarla bağlı mövcud olan tarixi faktlar əsasında hazırlanıb.

Sonda daha çox suala düzgün cavab verən Naxçıvan Dövlət Universitetinin "Qarabağ" komandası I, Naxçıvan Dövlət Texniki Kollecinin "Mübarizlər" komandası II, Naxçıvan Müəllimlər İnstitutunun "Mübariz" komandası isə III yerlərə çıxıb.

Qalib komandalara təşkilatçılar tərəfindən kubok, diplom və fəxri fərmanlar təqdim edilib.

Tədbir Gənclər və İdman, Daxili İşlər nazirliklərinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin***
***mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayonu, Xətai kənd sakini Mirzəyev Vasif Ağalar oğlunun adına verilmiş JN-95A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 923